# **Fəsil 6** Siyasi, normativ-hüquqi və inzibati baza



# MÜNDƏRİCAT

6 SİYASİ, NORMATİV-HÜQUQİ VƏ İNZİBATİ BAZA ........ 6-1
6.1 Giriş ........ 6-1
6.2 ƏMSSTQ hesabatına Əlavə ........ 6-1

# 6 SİYASİ, NORMATİV-HÜQUQİ VƏ İNZİBATİ BAZA

## 6.1 Giriş

Azərbaycanda bütövlükdə CQBKG layihəsinə, o cümlədən boru kəmərinin nəzərdə tutulan əlavə hissəsinə tətbiq edilən hüquqi rejim mürəkkəbdir. Layihənin ümumi normativ-hüquqi bazası aşağıdakılardan ibarətdir:

- Milli qanunvericilik (Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası ilə Gürcüstan arasında Təbii Qazın Cənubi Qafqaz Boru Kəməri Sistemi vasitəsilə Gürcüstan və Azərbaycan Respublikası ərazilərindən və ondan kənara daşınması, nəqli və satışı haqqında Saziş ("Hökumətlərarası Saziş" və ya "HAS" da adlandırılır) və Azərbaycan Respublikasının Hökuməti və CQBK İştirakçıları arasında Tranzit ərazisinə malik ölkənin Hökuməti ilə Saziş ("TƏMÖHS"))
- Seçilmiş beynəlxalq və regional konvensiyalar
- Seçilmiş beynəlxalq standartlar, metod və təlimatlar, o cümlədən Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) əsas prinsipləri
- Yerli normativ-hüquqi və inzibati baza
- BP şitkətinin korporativ qaydaları.

## 6.2 ƏMSSTQ hesabatına Əlavə

CQBKG layihəsi üçün nəzərdə tutulmuş, Azərbaycan ərazisini bütövlükdə əhatə edən və nəticə etibarilə boru kəmərinin nəzərdə tutulan əlavə hissəsinə də eyni dərəcədə şamil edilən normativ-hüquqi baza CQBKG üzrə Yekun ƏMSSTQ hesabatının 6-cı fəsli çərçivəsində qiymətləndirilib. Layihə çərçivəsində YUNESKO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilmiş Qobustan sahəsində və ya yaxınlığında tikinti işlərinin aparılmasına yol verilmədiyinə görə, boru kəmərinin nəzərdə tutulan əlavə hissəsinə heç bir əlavə qanun şamil edilməməlidir.

Təklif edilən CQBKG Layihəsində istifadə üçün hazırlanmış, CQBKG üzrə Yekun ƏMSSTQ hesabatının D Əlavəsinə qoşulmuş Ətraf Mühiti və Sosial Sahənin İdarəetmə və Monitorinq Planının (ƏMSAİMP) B Əlavəsində təqdim edilən ekoloji standartlar boru kəmərinin nəzərdə tutulan əlavə hissəsinə də eyni dərəcədə aiddir. Bundan başqa heç bir əlavə standart tələb olunmur.